# 1. Ümumi məlumat

**Ərazisi:** 93.028 $km^2$
**Əhalisi:** 9,992,339 (iyul 2010)
**Paytaxtı:** Budapeşt
**Milliyyət:** macar
**Etnik tərkibi: macarlar** – 92,3%, qaraçıları - 1,9%, digər – 5,8% (2001-ci ilin məlumatı)
**Əhalinin artımı:** -0,156% (2010-cu ilin məlumatı)
**Orta yaş həddi:** 40 il. Kişilər 37.8 il, Qadınlar 42.6 il (2010)
**Din:** Roma katolikləri – 51,9%, kalvinistlər – 15,9%, lüteranlar - 3%, yunan katolikləri – 2,6%, digər xristianlar – 1%, digərləri və ya qeyri-müəyyənlər – 11,1%, qalanlar – 14,5% (2001-ci ilin məlumatı)
**İnzibati ərazi bölgüsü:**19 vilayət, 23 şəhər dairəsi və 1 paytaxta bölünür
**Milli bayram:** 20 avqust (Müqəddəs Stefan Günü).
**Konstitusiya**: 18 avqust 1949-cu ildə qəbul olunmuş, 19 aprel 1972-ci ildə və 18 oktyabr 1989-cu ildə yenidən işlənmişdir. 1997-ci ildə əlavələr edilmişdir.
**Seçki yaşı**: 18
**Dövlət quruluşu:** Parlament Respublikası
**Rəsmi adı:** Macarıstan Respublikası
**Dövlət başçısı: Prezident** Parlament tərəfindən 5 il müddətinə iki dəfə seçilə bilər. Seçilmək üçün prezidentliyə namizəd ilk iki turda səslərin üçdə ikisini və ya üçüncü turda adi səs çoxluğu əldə etməlidir. Pal Şmit 29 iyun 2010-cu ildə Macarıstanın prezidenti seçilmişdir.
**Qanunverici hakimiyyət:** Qanunvericilik hakimiyyəti birpalatalı Milli Məclis tərəfindən həyata keçirilir. Məclis səsvermə yolu ilə 386 deputat tərkibi ilə 4 il müddətinə seçilir. Deputatlar partiya siyahıları üzrə proporsional və birbaşa sistem ilə seçilirlər.
11-25 aprel 2010-cu ildə parlamentə seçkilər keçirilmişdir. Parlamentin tərkibi aşağıdakı kimidir:
Gənc Demokratlar İttifaqı - Fides 263 yer;
Macarıstan Sosialist Partiyası - MSzP 59 yer;
"Jobbik" partiyası – 47 yer;
LMP (partiyanın adının tərcüməsi: "siyasət müxtəlif ola bilər") – 16 yer
Bitərəf – 1 yer
**İcraedici hakimiyyət:** İcraedici hakimiyyət Baş Nazirin başçılıq etdiyi Nazirlər Kabineti tərəfindən həyata keçirilir. Baş Nazir Prezidentin təklifi ilə Parlament tərəfindən səsvermə yolu ilə seçilir. Nazirlərin siyahısı Baş Nazirin təklifi ilə Parlamentdə müzakirə edilir və təsdiq üçün Prezidentə təqdim olunur.
**Məhkəmə hakimiyyəti:** Konstitusiya məhkəməsinin hakimləri Parlament tərəfindən 9 il müddətinə təyin olunur.

## 2. İqtisadiyyat

Pul vahidi: forint
**Ümumi Daxili Məhsul:** 190 milyard ABŞ dolları (2010-cu il)
**Ümumi Daxili Məhsulun artımı:** 0.8 % (2010-cu il)
**Ümumi Daxili Məhsuldan adambaşına düşən gəlir:** 19,000 ABŞ dolları (2010)
**Büdcə:** gəlirlər – 54,15 milyard ABŞ dolları, xərclər – 59,75 milyard ABŞ dolları (2009)
**Əsas sənaye sahələri:** mədən, metallurgiya, inşaat materialları, qida, tekstil, kimyəvi maddələr (xüsusilə əczaçılıq)
**İxrac:** 93,74 milyard ABŞ dolları (2010)
**İxrac məhsulları:** maşınqayırma və avadanlıq - 61.1%, digər məhsullar-28,7%, ərzaq - 6.5%, xammal - 2%, yanacaq və elektrik enerjisi - 1.6% (2009)
**İxrac tərəfdaşları:** Almaniya (25.54%), İtaliya (5.67 %), Rumıniya (5.28%), Avstriya (4.52%), Slovakiya (4.97%), Fransa (5,37 %), Birləşmiş Krallıq (5,41%)
**İdxal:** 87,44 milyard ABŞ dolları (2010)
**İdxal məhsulları:** maşınqayırma və təchizat – 50%, yanacaq və elektrik enerjisi - 11%, ərzaq, xammal
**İdxal tərəfdaşları:** Almaniya (25,05%), Rusiya (7,3%), Çin (8,56%), Avstriya (6,08%), Hollandiya (4,73%), Fransa (4.51%), İtaliya (4,13 %), Slovakiya (4,14%), Polşa (4,07%) (2009)
**Kənd təsərrüfatı məhsulları:** buğda, qarğıdalı, günəbaxan yağı, kartof, şəkər çuğunduru, malqara, quşçuluq, süd məhsulları
**İşsizlik: 11.5% (2010)**
**İnflyasiya: 4.5 % (2010)**
**İşçi qüvvəsi: 4,17 milyon nəfər**
**Xarici borcu:** 134.6 milyard ABŞ dolları (2010)

## 3. İkitərəfli münasibətlər

**Qısa tarixi məlumat -** Macarıstan Azərbaycanın müstəqilliyini 26 dekabr 1991-ci ildə tanımış, iki ölkə arasında diplomatik əlaqələr 27 noyabr 1992-ci ildə yaradılmışdır.
17 may 2001-ci ildə Macarıstanın Rusiyadakı Səfiri E.Keşken ölkəmizdə Fövqəladə və Səlahiyyətli səfir təyin olunması haqqında etimadnaməsini Azərbaycan Prezidentinə təqdim etmişdir.
1 sentyabr 2004-cü ildə Azərbaycan Respublikasının Prezidentinin fərmanı ilə Həsən Həsənov Azərbaycan Respublikasının Macarıstan Respublikasındakı Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilmişdir.
7 oktyabr 2004-cü ildə Azərbaycan Respublikasının Macarıstan Respublikasına təyin olunmuş Səfiri H.Həsənov həmin ölkənin Prezidenti F.Madlaya etimadnaməsini təqdim etmişdir.

19 dekabr 2008-ci il tarixində Macarıstan Respublikasının Azərbaycan Respublikasındakı Fövqəladə və Səlahiyyətli Səfiri cənab Jeno Boroş etimadnaməsini Azərbaycan Respublikasının Prezidentinə təqdim etmişdir.
30 mart 2010-cu il tarixində Azərbaycan Respublikasının Prezidenti İ.Əliyevin Sərəncamı ilə Vilayət Quliyev Macarıstan Respublikasının Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilmişdir.
12 iyul 2010-cu il tarixində Azərbaycan Respublikasının Macarıstan Respublikasına təyin olunmuş Səfiri Vilayət Quliyev həmin ölkənin sabiq Prezidenti Laslo Şoyomaya etimadnaməsini təqdim etmişdir.
14 dekabr 2010-cu il tarixində Macarıstan Respublikasının Azərbaycan Respublikasındakı Fövqəladə və Səlahiyyətli Səfiri cənab Jolt Çutora etimadnaməni Azərbaycan Respublikasının Prezidentinə təqdim etmişdir.

## *Rəsmi əlaqələrin ardıcıllığı*

18-19 fevral 2008-ci il tarixlərində Azərbaycan Respublikasının Prezidenti Zati-Aliləri cənab İlham Əliyev Macarıstan Respublikasında Dövlət səfərində olmuşdur. Səfər çərçivəsində Prezident İ.Əliyev Macarıstan Respublikasının Prezidenti Laslo Şoyom, Baş Nazir Ferents Gyurçani və Parlamentin sədri Sili Katalini ilə görüşlər keçirmiş, eləcə də Azərbaycanın Budapeştdəki Səfirliyinin yeni binasının və Səfirlikdəki Ümummilli Lider Heydər Əliyevin büstünün açılışı mərasimlərində iştirak etmişdir.
21 fevral 2008-ci il tarixində Macarıstandakı Səfirliyimiz Xocalı faciəsinin 16-cı ildönümü münasibəti ilə Budapeştin nüfuzlu Mədəniyyət mərkəzində Xocalı faciəsi zamanı həlak olan şəhidlərimizin Xatirə gecəsi keçirilmişdir.
7 may 2008-ci il tarixində Macarıstandakı Səfirliyimiz Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 85-ci ildönümü münasibətilə rəsmi tədbir keçirmişdir.
Macarıstan Xarici İşlər Nazirliyinin Dövlət Katibi Corc Gilyan, Macarıstan-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Yanoş Xorvat və digər millət vəkilləri, Macarıstanda akkreditə olunmuş Səfirlər, ictimaiyyət və KİV nümayəndələri, Azərbaycan diasporunun üzvləri və bu ölkədə təhsil alan azərbaycanlı tələbələrin iştirak etdiyi tədbirdə Heydər Əliyev haqqında film nümayiş etdirilmiş, Ümummilli Liderin həyat və fəaliyyətinə həsr edilmiş fotosərgi ilə tanışlıq olmuş, Macarıstan Milli Opera və Balet Teatrının solisti, gözəl soprano səsinə malik olan, Avropanın tanınmış macar müğənnisi İnqrid Korteşi Tofiq Quliyevin əsərlərini Azərbaycan dilində ifa etmişdir. Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 85-ci ildönümü ərəfəsində Macarıstanın "DUNA-TV" televiziya kanalında rejissor Vaqif Mustafayevin çəkdiyi "Prezident Heydər Əliyev" sənədli filmi macar dilində nümayiş etdirilmiş, cari ilin 8 may tarixində isə Macarıstanın Xarici Ədəbiyyat Kitabxanasında tədbir keçirilərək, Heydər Əliyevə həsr edilmiş nəşrlər kitabxanaya hədiyyə edilmişdir.
18-20 iyun 2008-ci il tarixlərində Azərbaycan Parlamentinin yaradılmasının 90-cı ildönümü münasibətilə keçirilmiş təntənəli mərasimlərdə iştirak etmək üçün Macarıstan Parlamentinin Macarıstan-Azərbaycan parlamentlərarası dostluq

qrupunun rəhbəri Yanoş Xorvatın başçılıq etdiyi nümayəndə heyəti ölkəmizə səfər etmişdir.
7-8 iyul 2008-ci il tarixlərində Macarıstan Respublikasının Baş Naziri cənab Ferents Dyurçani Azərbaycana rəsmi səfər etmişdir.
13-16 iyul 2008-ci il tarixlərində Macarıstan Respublikası Konstitusiya Məhkəməsinin Sədri Peter Pakzolay Azərbaycana səfər etmişdir.
5-7 sentyabr 2008-ci il tarixlərində Macarıstan Parlamentinin Sədri xanım Katalini Sili Azərbaycanda rəsmi səfər etmişdir.
8-9 sentyabr 2008-ci il tarixlərində Macarıstan Baş Nazirinin "Nabucco" layihəsi üzrə Xüsusi tapşırıqlar üzrə Səfiri Mihay Bayer Bakıya səfər etmiş və 2009-cu ilin 25-26 yanvar tarixlərində Budapeştdə keçiriləcək "Nabucco" enerji sammitində iştirak etmək üçün Baş Nazir F.Dyurçani tərəfindən Prezident İ.Əliyevə ünvanlanmış dəvət məktubunu Xarici İşlər naziri E.Məmmədyarova təqdim etmişdir.
24 oktyabr 2008-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti cənab İ.Əliyevin inauqurasiya mərasimi Azərbaycanın Macarıstandakı Səfirliyinin təşəbbüsü ilə, Səfirliyin böyük zalında Macarıstanda yaşayan Azərbaycan icması tərəfindən canlı olaraq izlənilmişdir.
14 noyabr 2008-ci il tarixində Macarıstan Respublikasının Baş Naziri F.Dyurçani Bakıda keçirilən 4-cü Enerji Sammitinin işində iştirak etmiş və bu səfər çərçivəsində Azərbaycan Respublikasının Prezidenti İ.Əliyevlə görüşmüşdür.
3 dekabr 2008-ci il tarixində Azərbaycan Respublikasının Macarıstan Respublikasındakı Səfirliyində "DUNA TV" günü qeyd olunmuşdur. "DUNA TV" televiziya kanalı Azərbaycan-Macarıstan əlaqələrinin inkişafında mühüm rol oynayan qurumlardan biridir. Azərbaycan haqqında müntəzəm olaraq verilişlər efirə verən, eləcə də ölkəmizin İctimai televiziya kanalı ilə əməkdaşlıq edən "DUNA TV", Ümumilli Lider Heydər Əliyevin doğum günü münasibətilə "Bir həsədin tarixçəsi" adlı filmi macar dilində nümayiş etdirmiş, bununla yanaşı ölkəmizin milli bayramı 28 may-Respublika günü münasibətilə bütün efir gününü Azərbaycana həsr etmişdir. Səfir Azərbaycan-Macarıstan əlaqələrinə verdiyi töhfələrə görə "DUNA TV"-nin prezidenti Laslo Çelenini Səfirliyin təsis etdiyi, üzərində Qız Qalası təsviri olan xüsusi mükafatla təltif etmişdir.
17 dekabr 2008-ci il tarixində Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin vəfatının 5-ci ildönümünə həsr edilmiş klassik musiqi Konserti keçirilmişdir. Dirijorunun Azərbaycan musiqiçisi Y.Adıgözəlov olduğu Konsertdə F.Əmirov, Soltan Hacıbəyov, Pyotr Çaykovski və Riçard Vaqnerin əsərləri dinlənilmişdir. Konsertdə Macarıstanın müxtəlif dövlət və qeyri-hökumət qurum və təşkilatlarının təmsilçiləri, diplomatik korpusun nümayəndələri, habelə Azərbaycan diasporunun üzvləri iştirak etmişlər.
26-27 yanvar 2009-cu il tarixində Macarıstanın paytaxtı Budapeştdə keçirilən "Nabucco" enerji sammitində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev iştirak etmiş və səfər çərçivəsində Macarıstanın Baş Naziri Ferents Dyurçani ilə görüş keçirmişdir.
2009-cu ilin fevral-mart aylarında Macarıstanda "Azərbaycan kitab ayı" keçirilmişdir. Proqram çərçivəsində Macarıstan Milli Elmlər Akademiyası

Kitabxanası, bir sıra ali məktəblərin nəzdində yerləşən kitabxanalar, habelə digər kitabxanalara Azərbaycan mövzusunda kitablar hədiyyə olunmuşdur.
5-9 may 2009-cu il tarixlərində Macarıstan İşəgötürənlər və Sənayeçilər Konfederasiyasının sədri cənab Tsaba Orosun rəhbərlik etdiyi nümayəndə heyəti Biznes Forumda iştirak etmək üçün Azərbaycana səfər etmişdir.
7 may 2009-cu il tarixində Macarıstan İşəgötürənlər və Sənayeçilər Konfederasiyasının sədri cənab Tsaba Orosun rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycan Müdafiə Sənayesi Nazirliyində görüş keçirmişdir.
11-16 may 2009-cu il tarixlərində Budapeşt şəhərində Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycanın Macarıstandakı Səfirliyi və Macarıstan Milli Kino Arxivinin birgə təşkilatçılığı ilə "Azərbaycan Kinosu Həftəsi" keçirilmişdir.
14 may 2009-cu il tarixində Macarıstan parlamenti və Müstəqil Avropa Mərkəzinin təşəbbüsü ilə enerji məsələlərinə həsr olunmuş konfrans keçirilmişdir. Konfransda Azərbaycanı Milli Məclisin sədrinin müavini Valeh Ələsgərov təmsil etmişdir.
19-20 may 2009-cu il tarixlərində Macarıstan Parlamentinin Avropa İşləri Komitəsinin sədri cənab Matyaş Eörşinin rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycana səfər etmiş və səfər çərçivəsində Azərbaycan Respublikasının Prezidenti cənab İ.Əliyev, Milli Məclisin Sədri O.Əsədov tərəfindən qəbul edilmiş, eləcə də AŞPA-dakı Nümayəndə heyətinin rəhbəri S.Seyidov və Azərbaycan-Macarıstan Parlamentlərarası dostluq qrupunun sədri X.Kazımlı ilə görüşlər keçirmişdir.
24-27 may 2009-cu il tarixlərində Azərbaycanın Dövlət Sərhəd Xidmətinin rəisi Elçin Quliyevin başçılıq etdiyi nümayəndə heyəti Macarıstanda keçirilən sərhəd məsələləri üzrə növbəti konfransda iştirak etmək üçün Macarıstanda səfərdə olmuşdur.
2-6 sentyabr 2009-cu il tarixlərində Azərbaycanın Hərbi Prokuroru, Baş Prokurorun müavini Xanlar Vəliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Macarıstanın Ədliyyə Akademiyasında keçirilən Cinayət hüququ üzrə IX Beynəlxalq konfransda iştirak etmək məqsədilə həmin ölkəyə səfər etmişdir.
26 avqust 2009-cu il tarixində Macarıstanın Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Avropa Regional Ofisi üzrə direktor vəzifəsinə namizədi xanım Suzanna Yakab Bakıda səfərdə olmuş və Xarici işlər nazirinin müavini M.Məmməd-Quliyev ilə görüşmüşdür.
9-10 sentyabr 2009-cu il tarixlərində Macarıstanın Müdafiə Nazirliyinin Dövlət Katibi xanım Aqneş Vadai Azərbaycana səfər etmiş və Müdafiə Nazirliyi, Milli Məclisdə bir sıra görüşlər keçirmişdir.
2-6 noyabr 2009-cu il tarixlərində Milli Məclisin Azərbaycan-Macarıstan Parlamentlərarası Dostluq Qrupunun sədri Xanhüseyn Kazımlı Macarıstanda səfərdə olmuş və həmin ölkənin parlamentinin spikeri Laslo Mandur və Macarıstan Parlamentində Azərbaycan-Macarıstan Dostluq Qrupunun sədri Yanoş Horvatla görüşmüşdür.
5-8 noyabr 2009-cu il tarixlərində Macarıstanın Korvinus Universitetinin rektoru prof. T.Mezaroşun rəhbərliyi altında nümayəndə heyəti iki ölkə arasında təhsil

sahəsində əməkdaşlıq imkanlarının müzakirəsi məqsədilə Azərbaycana səfər etmişdir.
22-23 fevral 2010-cu il tarixlərində Budapeşt şəhərində Azərbaycan-Macarıstan İqtisadi Əməkdaşlıq üzrə Hökumətlərarası Birgə Komissiyasının ilk iclası keçirilmişdir. İclasda ölkəmizi İqtisadi İnkişaf Naziri Ş.Mustafayev, Xarici işlər nazirinin müavini X.Xələfov, Sənaye və energetika nazirinin müavini G.Cavadov, Nəqliyyat nazirinin müavini M.Pənahov, Ekologiya və təbii sərvətlər nazirinin müavini F.Əliyev, Təhsil nazirinin müavini E.Qasımov, Səhiyyə nazirinin müavini E.Ağayev, Rabitə və informasiya texnologiyaları nazirinin müavini E.Vəlizadə və s. təmsil etmişlər.
23-25 fevral 2010-cu il tarixlərində AR Milli Məclisinin üzvləri E.Məmmədov və İ.İsrafilov Vışeqrad Qrupu ölkələri Parlamentlərinin Avropa işləri üzrə Komitə üzvlərinin Şərq Tərəfdaşlığı Proqramının iştirakçıları olan altı ölkə Parlamentlərinin nümayəndələri ilə birgə iclasında iştirak etmək məqsədilə Macarıstanda səfər etmişdirlər.
2 mart 2010-cu il tarixində Budapeştdə Vışeqrad qrupu ölkələri və Şərq Tərəfdaşlığı Proqramının iştirakçısı olan ölkələrin Xarici İşlər Nazirlərinin birgə iclası keçirilmişdir. Tədbirdə Baltikyanı dövlətlərin, İspaniya, Belçika və İsveçin yüksək səviyyəli nümayəndələri, habelə Genişlənmə və Qonşuluq Siyasəti üzrə Avropa Komissarı Ştefan Füle iştirak etmişdir. Tədbirdə Azərbaycanı Xarici işlər nazirinin müavini M.Məmməd-Quliyevin rəhbərlik etdiyi nümayəndə heyəti təmsil etmişdir.
11-12 mart 2010-cu il tarixlərində AR təhsil naziri M.Mərdanov və Bakı Slavyan Universitetinin rektoru K.Abdullayev Bolonya sisteminin 10 illiyi münasibəti ilə illik Bolonya Konfransında iştirak etmək məqsədilə Macarıstana səfər etmişdirlər.
19-20 aprel 2010-cu il tarixlərində ERRA-nın (Energy Regulators Regional Association) Azərbaycan Dövlət Neft Şirkətinin sponsorluğu ilə təşkil etdiyi 9-cu Enerji İnvestisiyası və Tənzimetməsi Konfransında ARDNŞ və Azərbaycan Respublikasının Tarif Şurasının əməkdaşları iştirak etmişlər.
13-14 sentyabr 2010-cu il tarixlərində Macarıstanın Baş Naziri Viktor Orbanın rəhbərlik ilə nümayəndə heyəti Bakıda keçirilmiş AGRİ sammitində iştirak etmək məqsədilə Azərbaycana səfər etmişdir.
05-08 oktyabr 2011-ci il tarixlərində Budapeştdə “Cavad xan” filminin təqdimat xarakterli nümayişi ilə əlaqədar filmin ssenari müəllifi, xalq şairi, millət vəkili Sabir Rüstəmxanlı və s. Mararıstana səfər etmişdirlər. Səfər zamanı S.Rüstəmxanlı Macarıstan-Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun sədri Marton Döndöşi ilə görüş keçirmişdir.
22-25 noyabr 2010-cu il tarixlərində Səfirliyimizdə “Azərbaycan-Macarıstan: Mədəniyyətlərin dialoqu” mövzusunda V Beynəlxalq elmi konfrans keçirilmişdir. Konfransda millət vəkili, Naxçıvan Dövlət Universitetinin rektoru, akademik İ.Həbibbəyli, AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunun direktor müavini, AMEA-nın müxbir üzvü T.Kərimli, AMEA-nın Memarlıq və İncəsənət İnstitutunun direktoru Ə.Salamzadə, AMEA-nın Naxçıvan bölməsinin Dil, Ədəbiyyat və Mədəniyyət İnstitutunun direktoru Ə.Quliyev, AMEA-nın İqtisadiyyat İnstitutunun direktor müavini A.Muradov (bütövlükdə 17 nəfər), habelə Türkiyə və Ukraynadan olan qonaqlar Macarıstanda olmuşlar.

28 fevral – 2 mart 2011-ci il tarixində Macarıstan ilə Azərbaycan arasında xarici işlər nazirlərinin müavinləri səviyyəsində siyasi məsləhətləşmələrin növbəti mərhələsi Budapeştdə keçirilmişdir.

## 4. Müqavilə-hüquqi bazası

Azərbaycan ilə Macarıstan arasında 16 sənəd imzalanmışdır

1. Azərbaycan Respublikası Hökuməti və Macarıstan Respublikası Hökuməti arasında iqtisadi-ticarət əlaqələri haqqında Saziş. Moskva, 2 sentyabr 1993
**1 may 2004-cü il tarixindən ləğv edilmişdir.**

2. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi ilə Macarıstan Respublikası Xarici İşlər Nazirliyi arasında əməkdaşlıq haqqında Protokol. Bakı, 28 fevral, 1997

3. Azərbaycan Respublikası Hökuməti və Macarıstan Respublikası Hökuməti arasında diplomatik və xidməti pasport sahibləri olan vətəndaşlarının vizasız gediş-gəlişinə dair Saziş. 1999
**Azərbaycan Respublikasının 917-IQ saylı, 18 iyul 2000-ci il tarixli Qanunu ilə təsdiq edilmişdir.**

4. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Macarıstan Respublikası Gömrük və Maliyyə Mühafizə Xidməti arasında əməkdaşlıq haqqında Protokol. Bakı, 3 fevral 2006
**Azərbaycan Respublikası Prezidentinin 1350 saylı, 6 mart 2006-cı il tarixli Sərəncamı ilə təsdiq edilmişdir. İmzalandığı andan qüvvəyə minmişdir.**

5. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Macarıstan Respublikasının Maliyyə Nazirliyi arasında əməkdaşlığa dair Anlaşma Memorandumu. Budapeşt, 22 mart 2007
**İmzalandığı tarixdən qüvvəyə minmişdir.**

6. Azərbaycan Respublikası və Macarıstan Respublikası arasında sərmayələrin qarşılıqlı qorunması haqqında Saziş. Bakı, 18 may 2007
**Azərbaycan Respublikasının 414-IIIQ saylı, 1 oktyabr 2007-ci il tarixli Qanunu ilə təsdiq edilmişdir.**
**Bu barədə AR XİN-nin 5/11-2450/03/07 saylı, 27 dekabr 2007-ci il tarixli Notası təqdim edilmişdir.**
**Macarıstan tərəfinin 8124/Adm/KÜM/2007 saylı, 3 oktyabr 2007-ci il tarixli Notası göndərilmişdir.**
**26 fevral 2008-ci il tarixindən qüvvəyə minmişdir.**

7. Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi və Macarıstan Respublikasının İqtisadiyyat və Nəqliyyat Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş. Bakı, 18 may 2007

**Azərbaycan Respublikası Prezidentinin 2362 saylı, 28 avqust 2007-ci il tarixli Sərəncamı ilə təsdiq edilmişdir.**

**Bu barədə AR XİN-nin 5/11-2450/03/07 saylı, 27 dekabr 2007-ci il tarixli Notası təqdim edilmişdir.**

8. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Macarıstan Respublikasının Sosial İşlər və Əmək Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş. Budapeşt, 25 sentyabr 2007

**Azərbaycan Respublikası Prezidentinin 2511 saylı, 23 noyabr 2007-ci il tarixli Sərəncamı ilə təsdiq edilmişdir.**

**Bu barədə AR XİN-nin 5/11-2451/03/07 saylı, 27 dekabr 2007-ci il tarixli Notası təqdim edilmişdir.**

**Macarıstan tərəfinin Ref. No. 1177-1 /08-EURİNT saylı, 22 yanvar 2008-ci il tarixli məktub göndərilmişdir.**

**26 yanvar 2008-ci il tarixindən qüvvəyə minmişdir.**

9. Azərbaycan Respublikasının Xarici İşlər Naziri və Macarıstan Respublikasının Xarici İşlər Nazirinin Birgə Bəyannaməsi. Budapeşt, 18 fevral 2008

10. Azərbaycan Respublikası Hökuməti və Macarıstan Respublikası Hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında Konvensiya. Budapeşt, 18 fevral 2008

**Azərbaycan Respublikasının 633-IIIQ saylı, 13 iyun 2008-ci il tarixli Qanunu ilə təsdiq edilmişdir.**

**Bu barədə Macarıstan XİN-nin 190-4/Adm/KÜM/2007 saylı 18 dekabr 2008-ci il tarixli notası daxil olmuşdur.**

**Saziş 15 dekabr 2008-ci il tarixindən qüvvəyə minmişdir.**

11. Azərbaycan Respublikası Hökuməti və Macarıstan Respublikası Hökuməti arasında iqtisadi əməkdaşlıq haqqında Saziş. Budapeşt, 18 fevral 2008

**Azərbaycan Respublikasının Prezidentinin 2837 saylı, 27 may 2008-ci il tarixli sərəncamı ilə təsdiq edilmişdir.**

12. Azərbaycan Respublikasının Sənaye və Energetika Nazirliyi və Macarıstan Respublikasının İqtisadiyyat və Nəqliyyat Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş. Budapeşt, 18 fevral 2008

**Azərbaycan Respublikasının Prezidentinin 2837 saylı, 27 may 2008-ci il tarixli sərəncamı ilə təsdiq edilmişdir.**

13. Azərbaycan Respublikası Kənd təsərrüfat Nazirliyi və Macarıstan Respublikasının Kənd Təsərrüfat Nazirliyi və Kəndin İnkişafı Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş. Bakı, 7 iyul 2008.
**Azərbaycan Respublikasının Prezidentinin 2971 saylı, 6 avqust 2008-ci il tarixli sərəncamı ilə təsdiq edilmişdir.**

14. Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi ilə Macarıstan Respublikasının Nəqliyyat, Telekommunikasiyalar və Enerji Nazirliyi arasında informasiya texnologiyaları və rabitə sahəsində əməkdaşlıq haqqında Saziş, 7 iyul 2008
**Azərbaycan Respublikasının Prezidentinin 2971 saylı, 6 avqust 2008-ci il tarixli sərəncamı ilə təsdiq edilmişdir.**

15. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi və Macar Mərkəzi Statistika İdarəsi arasında statistika sahəsində əməkdaşlıq haqqında Saziş. 7 iyul 2008
**Azərbaycan Respublikasının Prezidentinin 2971 saylı, 6 avqust 2008-ci il tarixli sərəncamı ilə təsdiq edilmişdir.**

16. Azərbaycan Respublikası Hökuməti və Macarıstan Respublikası Hökuməti arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Komissiyanın birinci iclasının Protokolu. Budapeşt, 23 fevral 2010

## 5. Tərcümeyi-hallar

### Prezident Pal Şmit (Pal Schmitt)

Pol Şmitt (1942-ci ilin 13 may tarixində Budapeştdə anadan olmuşdur) macar siyasətçisi, Fides – Macar Vətəndaş İttifaqının Avropa Parlamentində (AP) üzvü, Avropa Xalq Partiyası Bürosunun üzvü və eyni zamanda AP-nin Mədəniyyət və Təhsil üzrə Komitəsinin sədr müavinidir. P.Şmit Avropa-Xorvatiya Müştərək Parlament Komitəsində nümayəndə heyətinə sədrlik edir. 2009-cu il 14 iyul tarixində Avropa Parlamentinin 14 vitse-prezidentindən biri seçilmişdir.
Beynəlxalq Olimpiya Komitəsinin (BOK) Protokol idarəsinin rəisidir və 1999-2007-ci illərdə Dünya Olimpiyaçılar Assosiasiyasına sədrlik etmişdir.
**Təhsili:**
**1965** - İqtisadiyyat Universiteti
**1992** - Fiziki Təhsil Universitetində doktorantura (PhD)

**Əmək fəaliyyəti:**
**1965-1980** - Otel meneceri
**1983-cü ildən** - BOK-un üzvü
**1983-1989 -** Macarıstan Olimpiya Komitəsinin Birinci katibi
**1991-1999 -** BOK-un İcraiyyə Şurasının üzvü
**1993-1997 -** İspaniyada Səfir

**1995-1999 -** BOK-un vitse-prezidenti
**1998-2002 -** İsveçrədə Səfir
**2003-2007 -** Fides Partiyasının sədr müavini
**2004-cü ildən -** AP-nin üzvü
**2009-cu ildən -** AP-nin vitse-prezidenti
**2010-cu ilin 14 may** tarixində Macarıstan Parlamentinin Sədri seçilmişdir.

## Baş Nazir Viktor Orban

V.Orban Macarıstanın qərbində Sekesfehervar məntəqəsində anadan olmuşdur. Hüquq təhsili almışdır. 1984-cü ildə sosial nəzəriyyə üzrə Sazadveg dərgisinin redaktoru olmuşdur. Təhsilini başa vurduqdan sonra 1987-1988-ci illərdə sosioloq, 1988-1989-cu illərdə Mərkəzi Avropa Tədqiqat Qrupunun üzvü kimi çalışmışdır. 1989-cu ildə Oksfordda Pembrok Kollecinə daxil olmuşdur.
**1988-ci ilin martında** Gənc Demokratlar Federasiyasının yaradıcılarından biri olmuşdur. Sözügedən partiyanın adı 1995-ci ilin aprel ayında Fides-Macarıstan Vətəndaş Partiyasına dəyişdirilmişdir.
**1956-cı ildə** Macarıstanın Baş Naziri olmuş İmre Nadın 1989-cu ilin 16 iyun tarixində təkrar dəfni mərasimi zamanı V.Orbanın sovet qoşunlarının ölkədən çıxarılmasını tələb etməsi bir siyasətçi kimi onun tanınmasına səbəb olmuşdur.
**1990-cı ildə** Macarıstan Parlamentinə seçilmiş və 1993-cü ilə kimi Fides Partiyasının parlament qrupuna rəhbərlik etmiş, 1993-2000-ci illərdə və 2003-cü ildən sonra həmin partiyanın sədri vəzifəsində işləmişdir.
**1998-ci ildə** parlament seçkilərində partiyasının qələbəsindən sonra 4 il müddətinə Fides, Xristian Demokrat Xalq Partiyası və Müstəqil Kiçik İcarəçilər Partiyasından ibarət koalisiya hökumətinə başçılıq etmişdir.
**2003-cü ildən** bəri Avropa Xalq Partiyasının vitse-prezidenti olmuşdur.
**2010-cu ildə** keçirilmiş parlament seçkilərində Fides-Xristian Demokrat ittifaqının səslərin üçdə ikisini əldə etməsindən sonra ölkə başçısı Laslo Şoyom ona Baş Nazir vəzifəsini təklif etmişdir.

## Xarici İşlər Naziri Yanoş Martoni

**1944-cü ilin 5 aprel** tarixində Rumıniyada anadan olmuşdur.
**1967-ci ildə** Seged şəhəri, Atilla Jozef adına Universitetin hüquq fakültəsini bitirmiş və doktorluq dərəcəsini almışdır. 1969-cu ildə vəkil-hüquq məsləhətçisi imtahanını vermişdir. 1968-ci ildə London şəhər Kollecində Beynəlxalq ticarət hüququ mövzusunda beynəlxalq konfransda iştirak etmişdir.
**1979-cu ildə** Brüsseldə ticarət nümayəndəliyinin ticarət katibi, 1984-cü ildə Ticarət Nazirliyində Baş şöbənin rəisi, 1989-cu ildə özəlləşdirmə üzrə səlahiyyətli nümayəndə, 1990-cı ildə Beynəlxalq Əlaqələr Nazirliyində dövlət katibi vəzifəsində çalışmışdır.

**1991-94-cü illərdə** Xarici İşlər Nazirliyində İnzibati Məsələlər üzrə dövlət katibi, **1990-92-ci illərdə** Dövlət Mülkiyyət Agentliyi Direktorluğunun rəhbərinin müavini, **1994-98-ci illərdə** və **2002-2009-cu illərdə** "Baker və Makkenzi" hüquq şirkətinin sahibkarlarından biri olmuşdur. 1998-2002-ci illərdə Fides Partiyasının hakimiyyəti dövründə Xarici İşlər Naziri olmuşdur.
**1996-cı ildə** Macarıstan Vətəndaş Həmrəyliyi Assosiasiyasının vitse-prezidenti, 2002-2009-cu illərdə Azad Avropa Mərkəzinin prezidenti olmuşdur.
**1990-cı ildən** ELTE Universitetinin dosenti, **1997-2000-ci** illərdə Seged Universitetində Beynəlxalq Xüsusi Hüquq kafedrasının rəhbəri və dosenti olmuşdur. 1979-cu ildən dövlət və hüquqi elmləri namizədidir.
**2003-cü ildən** Fides Partiyasının üzvü və Fidesin Beynəlxalq siyasət proqramının müəllifidir. O, Avropa Konstitusiyasının Fransa və Niderland tərəfindən rədd edilməsindən sonra Aİ-nin yeni müqaviləsini hazırlayan AMATO qrupunun üzvü olmuşdur.
**2007-ci ildə** mətbuatda Y.Martoninin 60-cı illərdə məxfi polis işlədiyinə dair məlumatlar yayılmışdır. Avropa Elm və İncəsənət Akademiyasının üzvüdür.